Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidməti Publik Hüquqi Şəxs və Azərbaycan Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyası arasında 2024-2027-ci illər üzrə

# SAHƏ (TARİF) KOLLEKTİV SAZİŞİ

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidməti Publik Hüquqi Şəxsi və Azərbaycan Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyası arasında 2024-2027-ci illər üçün**

**Sahə (tarif) Kollektiv Sazişi**

"Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsi yaradılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 aprel tarixli 232 nömrəli Qərarı ilə Regional Su Meliorasiya Xidmətinin Nizamnaməsi təsdiq edilmişdir. Təsdiq edilmiş Nizamnamə ilə Xidmətin qarşısında meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması obyektlərinin işlək vəziyyətdə saxlanılması və istismarı ilə bağlı mühüm vəzifələr qoyulmuşdur.

"Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki publik hüquqi şəxslərin fəaliyyətinin təşkili ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin 27 may 2024-cü il tarixli 001/f nömrəli əmri ilə Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin strukturu, Xidmətin Aparatının strukturu və ştat cədvəli təsdiq edilmiş, Xidmətin işçilərinin ümumi say həddi, eyni zamanda Xidmətin Aparatının ştat vahidinin sayı müəyyən edilmişdir.

Regional Su Meliorasiya Xidməti Publik Hüquqi Şəxsin İdarə Heyətinin 16 iyul 2024-cü il tarixli iclasında Regional Su Meliorasiya Xidməti Publik Hüquqi Şəxsi ilə Azərbaycan Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyası arasında Sahə (tarif) Kollektiv Sazışın imzalanmasına dair qərar qəbul edilmişdir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və əmək münasibətləri sahəsində digər qanunvericilik aktlarına müvafiq olmaqla sahə işçilərinin bütün təbəqəsini əhatə etmək zərurətini nəzərə alaraq, ikitərəfli məsləhətləşmələr zamanı əldə edilmiş razılaşmalara riayət olunmasını qəbul edərək, Regional Su Meliorasiya Xidməti Publik Hüquqi Şəxsi ilə Kənd Təsərrüfatı və Qida Sənayəsi İşçiləri Həmkarlar İttifaqı Federasiyası Sahə işçilərinin sosial, iqtisadi və əmək münasibətlərinin tənzimlənməsinin əsas prinsipləri üzrə 2024-2027-ci illər üçün tərəflərin razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən bu Sazişi bağlayırlar.

Bu Sahə (tarif) Kollektiv Sazişinin həyata keçirilməsi məqsədi ilə işçilərin mədəni, təhsil və ixtisas potensialını yüksəltmək, təşkilatların iqtisadi və maliyyə vəziyyətlərinin möhkəmləndirilməsinə nail olmaq üçün Sazişin Tərəfləri qarşılıqlı əlaqələrinin sosial tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdirilməsinə, sosial əmək münasibətlərinin kollektiv müqavilələrin vasitəsi ilə tənzimlənməsinə birgə səy göstərməyi qarşılıqlı öhdəlik kimi qəbul edirlər.

## 1. İqtisadi siyasət sahəsində

Tərəflər suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyəti, habelə istehlakçıların məişət (təsərrüfat)-içməli, istehsalat, suvarma və digər məqsədlər üçün su təminatını həyata keçirməklə, tullantı və yağış sularının axıdılması xidmətlərini göstərməklə əhalinin etibarlı içməli su təchizatına, respublika iqtisadiyyatının inkişafına, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalının artımına nail olunacağını qeyd edərək ilk növbədə aşağıdakı öhdəlikləri qəbul edirlər:

1.1. əməyin təşkilinə, qabaqcıl əmək metodlarının təkmilləşdirilməsinə yardım göstərilməsi və yeni iş yerlərinin yaradılması üçün tədbirlər görülməsi;
1.2. müsabiqəli əsaslarla elmi texniki layihələrin, əməyin təşkili, qabaqcıl əmək metodlarının təkmilləşdirilməsinə yardım göstərilməsi;
1.3. meliorasiya, irriqasiya, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarının yaxşılaşdırılması bu sahədə xidmətlərin göstərilməsi;
1.4. su ehtiyatlarından səmərəli, qənaətlə istifadə olunması və su itkilərinin qarşısının alınması sahəsində tədbirlərin həyata keçirilməsi;
1.5. əhalinin içməli suya olan tələbatının ödənilməsi səviyyəsinin artırılması, əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması;
1.6. bazar iqtisadiyyatı şəraitində istehsalın həcminin artırılmasında və yeni iş yerlərinin yaradılmasında əsas amil olan kiçik və orta sahibkarlığa yardımın daha da gücləndirilməsi;
1.7. sudan qənaətlə istifadəyə imkan verən müasir suvarma sistemlərinin tədbiqinin genişləndirilməsi;
1.8. respublikanın çaylarında baş verə biləcək sel və daşqınların qarşısının alınması, sudan səmərəli və qənaətlə istifadənin təmin edilməsi məqsədi ilə suvarma və kollektor-drenaj şəbəkələrinin vaxtlı-vaxtında təmizlənməsi, təmir-bərpa işlərinin aparılması tədbirlərinin davam etdirilməsi.

## 2.Əməyin ödənilməsi, işçilərin gəlirləri və həyat səviyyəsi

Tərəflər Xidmətdə çalışan işçilərin həyat səviyyəsinin yüksəldilməsinə və gəlirlərinin artırılmasına, yoxsulluğun azaldılmasına istiqamətləndirilən kompleks tədbirlərin hazırlanmasını və həyata keçirilməsini zəruri hesab edirlər:

2.1. Qüvvədə olan qanunvericiliyə əsasən İşəgötürən tərəfindən əmək kollektivinin hər bir üzvünə əmək müqaviləsi əsasında onun tutduğu vəzifəyə, peşəyə, ixtisasına və əməyinin nəticələrinə uyğun əmək haqqı ödənişinə zəmanət vermək;
2.2. İstirahət və iş günü hesab edilməyən bayram və ümumxalq hüzn günündə, digər qeyri iş günlərində yerinə yetirilmiş işlərin ödənilməsi, boşdayanma müddətinin ödənilməsi, həmçinin bütün digər növ əlavə ödəmələr AR ƏM-nə və lokal aktlara uyğun olaraq həyata keçirmək;
2.3. Gecə vaxtı (gecə vaxtı AR ƏM-ə əsasən saat 22.00-dan 06.00-dək müddət hesab edilir) yerinə yetirilən işin hər saatına görə işçiyə onun saatlıq tarif (vəzifə) maaşının 20%-i həcmində əlavə ödəniş vermək;
2.4. Uçot dövrü üçün nəzərdə tutulan iş vaxtı normasından artıq işləmiş, həmçinin uçot dövründə iş vaxtı normasından artıq işlənilmənin tənzimlənməsinin mümkün olmadığı əvvəldən məlum olan iş yerlərində çalışan işçilərə hər ay artıq işlənmiş iş saatları üçün ödəniş aparmaq;
2.5. Əmək haqqı, ona bərabər tutulan digər ödənişlər, pul mükafatları, müavinətlər, əmək haqqına əlavələr növbəti ayın 15-i tarixinədək İşəgötürənin hesabından işçilərin bankdakı kart hesabına köçürülmə yolu ilə ödəmək, işçilərə ödəmələrin və tutulmaların bütün növləri və miqdarı göstərilməklə hesabat vərəqəsi təqdim etmək və əməkhaqqı ödənişi istirahət və bayram günləri ilə eyni vaxta təsadüf etdikdə, ödənişi istirahət günü ərəfəsində yerinə yetirmək;

2.6. İşəgötürən tərəfindən qanunvericiliklə müəyyən olunmuş qaydada və hədlərdə intizam tənbehlərini tətbiq etmək, işçini onun aylıq əmək haqqının ¼-i məbləğindən çox olmamaq şərti ilə cərimə edə bilmək;

2.7. Əmək münasibətində olan işçilərin Azərbaycan Respublikası Əmək Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq aylıq əmək haqqı saxlanılan hallarda işçiyə hesablanmış orta aylıq əmək haqqı işçinin həmin ayda faktiki almalı olduğu əmək haqqından az olarsa həmin fərq işçiyə müəssisə tərəfindən ödəmək;

2.8. qeyri-formal əmək münasibətlərinin qarşısını almaq məqsədi ilə işçiləri əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işə cəlb edən və onlara qeyri-rəsmi ödənişlər verən işəgötürənlər üzərində birgə nəzarəti gücləndirmək;

2.9. işçilərin tarif (vəzifə) maaşlarını Tarif-Cədvəli üzrə ödənilməsini təmin etmək;

2.10. əməkhaqqını ayda bir dəfədən gec olmamaq şərti ilə ödəmək, işin səmərəliliyinin və keyfiyyətinin artırılmasında maddi maraq yaratmaq məqsədi ilə işçiləri fərdi və ya kollektiv şəkildə aylıq və rüblük nəticələrə görə, eləcə də Dövlət bayramları münasibəti ilə Həmkarlar İttifaqı Komitəsi ilə razılaşdırmaqla mükafatlandırmaq, yaxud onlara maddi yardım göstərmək;

2.11. ayrı-ayrı işçilərə vəzifə öhdəliklərinin yerinə yetirilməsində əldə etdiyi nailiyyətlərə görə əlavə ödənişlər vermək;

2.12. əmək müqaviləsi üzrə öhdəliklərin yerinə yetirilməsində, istehsalın səmərəliliyinin və işin keyfiyyətinin artırılmasında işçilərin maddi marağını gücləndirmək məqsədi ilə aylıq, o cümlədən ilin yekunlarına görə mükafat, əlavə və maddi həvəsləndirmənin digər formalarını tətbiq etmək;

2.13. müəssisə və təşkilatlarda əməyin normallasdırılması istiqamətində aparılan işlərə diqqəti artırmaq;

2.14. əməyin ödənilməsi sahəsində qanunvericiliyin tələblərinə riayət olunmasına nəzarət etmək, struktur bölmə kollektivlərinin və ayrı-ayrı işçilərin tələb və təklifləri əsasında əməyin ödənilməsinin forma və sistemlərinin təkmilləşdirilməsi üçün müvafiq orqanlar qarşısında məsələ qaldırmaq.

## 3. İşçilərin məşğulluğu, hazırlanması və ixtisaslarının artırılması

Tərəflər işçilərin peşə hazırlığı səviyyəsinə, dəyişən iş şəraitinə uyğunlaşmaq qabiliyyətinə və yüksək əmək məhsuldarlığına olan tələbkarlığı nəzərə alaraq səmərəli məşğulluq siyasətini və əmək ehtiyatlarından düzgün istifadə edilməsini həyata keçirmək məqsədilə aşağıdakı öhdəlikləri götürürlər:

3.1. sosial sahənin inkişafını, yeni texnika və texnologiyanın tətbiqini və işdən azad olunmuş işçilərin peşə ixtisası hazırlığını nəzərə almaqla məşğulluq sahəsində işin təşkilini və əlaqələndirilməsini təmin etmək;

3.2. struktur dəyişiklikləri nəticəsində sərbəstləşdirilmiş işçilərin sosial müdafiəsini həll etmək, "Azərbaycan Respublikasında Əhalinin Məşğulluğu haqqında" Qanuna müvafiq olaraq sosial yardımlar, sahənin boş iş yerləri olan idarələrdə onların yerləşdirilməsinə köməklik göstərmək;

3.3. gənclərin məşğulluq imkanlarını artırmağa, kənd yerlərində çalışmasını həvəsləndirən imtiyazlar sisteminin təkmilləşdirilməsinə, əmək şəraitinin yaxşılaşdırılmasına, həyat səviyyəsinin yüksəldilməsinə, gənc işçilərin və mütəxəssislərin sosial müdafiəsinin gücləndirilməsinə istiqamətləndirilən tədbirləri dəstəkləmək;

3.4. ordudan tərxis olunmuş gənclərin əvvəlki iş yerlərinə və vəzifələrinə bərpa olunmasına nəzarəti gücləndirmək, onların peşələrinə uyğun müvafiq işlə təmin olunmasına nail olmaq;

3.5. mövcud iş yerlərinin saxlanılmasını və layiqli yeni iş yerlərinin yaradılmasını təmin edən işəgötürənlər üçün həvəsləndirici tədbirlər görmək, həmin müəssisələri Sahə və Respublıika Baxış müsabiqələrinə təqdim etmək;

3.6. işəgötürənin təşəbbüsü ilə idarənin struktur bölmələrinin ləğv edilməsi istehsalın tamamilə dayandırılmasına, iş yerlərinin ixtisarına və ya əmək şəraitinin pisləşməsinə səbəb olarsa, belə tədbirləri qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla müvafiq həmkarlar ittifaqlarını azı 3 ay qabaqcadan xəbərdar etmək və işçilərin mənafeyinin gözlənilməsi barədə danışıqlar aparmaqla həyata keçirmək;

3.7. işçilərin əmək hüquqlarını davamlı surətdə təmin etmək, əsassız olaraq müddətli müqavilələrin bağlanılmasına yol verməmək;

3.8. işçilərin ixtisarı zamanı işdə saxlamağa üstünlüyü olan şəxslərin siyahısına pensiyaya çıxmasına bir il qalmış, anadan olandan və ya uşaqlıqdan əlil uşaqları olan işçiləri daxil etmək;

3.9. işdən azad olunan peşəkar işçilərin sahənin digər idarələrində işə düzəlməsinə yardım göstərmək;

3.10. əmək şəraiti zərərli və ağır olan işçilərə müvafiq istehsalat, peşə və vəzifələrin Siyahısı əsasında qanunvericiliyə uyğun olaraq əlavə məzuniyyət verilməsinə nəzarəti gücləndirmək;

3.11. əmək qanunvericiliyinin tələblərinə riayət olunması üzərində nəzarəti gücləndirmək;

3.12. mövcud iş yerlərinin saxlanılmasını və layiqli yeni iş yerlərinin yaradılmasını təmin edən işəgötürənlər üçün həvəsləndirici tədbirləri genişləndirmək;

3.13. müəssisələrdə iş və istirahət vaxtı barədə normalara riayət olunmasına həmkarlar ittifaqı komitəsi tərəfindən nəzarəti təmin etmək;

3.14. idarələrin iqtisadi imkanları nəzərə alınmaqla qanunvericilikdə nəzərdə tutulan əlavə ödənişli və ödənişsiz məzuniyyət hüququndan istifadə olunmasını təmin etmək.

## 4. Gender bərabərliyi siyasətinin həyata keçirilməsi sahəsində

İş yerlərində gender bərabərliyinin gözlənilməsi, cinsindən asılı olmayaraq bütün işçilərə təhlükəsiz və sağlam iş şəraitinin və faydalı işləmələri üçün bərabər imkanların yaradılmasına dair Tərəflərin öhdəlikləri:

4.1. müəssisə və təşkilatlarda işçilərin (kişi və qadınların) rəhbər vəzifələrə irəli çəkilməsi prosesinin şəffaf keçməsini təmin etmək;

4.2. iş yerləri üzrə qadınlara bərabər hüquq və imkanlar prinsiplərinin həyata keçirilməsi və nəzərdə tutulan təminatlar sistemindən istifadə edilməsi üçün şərait yaratmaq;

4.3. ölkə qanunvericiliyi ilə qadınlar üçün doğuşa və uşağa qulluq etməyə görə nəzərdə tutulan imtiyazlara nisbətən işləyən qadınlara əlavə və müvafiq imtiyazların verilməsini, ehtiyac olduqda anaya müəyyən edilmiş günlər həcmində öz hesabına əlavə məzuniyyət verilməsini nəzərdə tutmaq;

4.4. həmkarlar ittifaqlarının bütün səlahiyyətli orqanlarında gender bərabərliyi və qadın problemləri ilə məşğul olan komissiyaların yaradılmasına və ya bu məsələlərlə məşğul olan məsul şəxsin müəyyən edilməsinə və onların fəaliyyət göstərməsinə şərait yaratmaq;

4.5. kişi və qadın işçilər tərəfindən həyata keçirilən eyni işlər üçün bərabər həcmdə əməyin ödənilməsi məqsədi ilə tədbirlər görmək;

4.6. 15 yaşadək əlil uşağı olan ailədə ananın işləyib-işləməməsindən asılı olmayaraq ataya yazılı ərizəsi əsasında, ildə bir dəfə, müəyyən edilmiş müddətdə ödənişsiz məzuniyyət verməк;

4.7. iş yerlərində qadınların təbii və reproduktiv xüsusiyyətləri nəzərə alınmaqla, müasir tələblərə cavab verə biləcək sanitariya-gigiyena normalarını təmin etmək;

4.8. kişi və qadınların mülkiyyət hüququnun həyata keçirilməsi və sahibkarlıq fəaliyyəti ilə məşğul olması üçün bərabər imkanların yaradılmasına imkan vermək.

## 5. İşçilərin sosial müdafiəsinin, sağlamlığının və tibbi xidmətinin yaxşılaşdırılması sahəsində

Tərəflər sahənin idarə və təşkilatlarında çalışan işçilərin sosial müdafiəsi üzrə hüquqlarının təmin edilməsi üçün aşağıda göstərilən tədbirlərin həyata keçirilməsini zəruri hesab edirlər:

5.1. idarə və təşkilatlarda işçilərin məzuniyyət hüququndan istifadə etmələrinə nəzarəti gücləndirmək;

5.2. işəgötürənlər tərəfindən sosial sığorta haqlarının vaxtında və tam həcmdə köçürülməsinin təmin edilməsinə birgə nəzarəti gücləndirmək;

5.3. uşaq əməyinin, məcburi əməyin və insan alverinin aradan qaldırılmasını təmin edən, əmək miqrasiyasını tənzimləyən dövlət sosial proqramların aidiyyəti üzrə icrası ilə bağlı monitorinqləri təşkil etmək;

5.4. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsaslanaraq sahə işçilərinin və onların ailə üzvlərinin tibbi sığorta olunmasına nail olmaq və bu məsələnin icrası ilə əlaqədar aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırmaq;

5.5. işçilərə əmək qabiliyyətlərinin yüksəldilməsi və sağlamlıqlarının möhkəmləndirilməsi məqsədi ilə istirahət evləri, turist bazaları və sanatoriya-kurort müəssisələrinə müvafiq göndərişlər (yollayışlar) vermək.

## 6. Əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik

Tərəflər əmək hüquqlarının müdafiəsini, əməyin mühafizəsini, texniki və ekoloji təhlükəsizliyi əməkdaşlığın əsas istiqamətlərindən biri kimi dəyərləndirərək aşağıdakı öhdəlikləri qəbul edirlər:

6.1. mütəmadi olaraq hər ilin yekununda əmək şəraitinin, istehsalatda baş vermiş zədələnmələrin, bədbəxt hadisələrin, peşə və ümumi xəstəliklərin səbəblərini araşdırmaq və bunların qarşısının alınması məqsədi ilə qabaqlayıcı tədbirlər planı hazırlamaq;

6.2. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq işəgötürən tərəfindən işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə, əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmasını davam etdirmək;

6.3. işçilərin, xüsusilə gənc nəslin əmək qanunvericiliyi və əməyin mühafizəsi norma və qaydaları barədə mütəmadi məlumatlandırılması məqsədi ilə respublikanın müxtəlif bölgələrində regional xarakterli tədbirlərin keçirilməsini davam etdirmək;

6.4. işçilərə qüvvədə olan normalara uyğun olaraq xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələri vermək, onların lazımi qaydada saxlanmasını və profilaktikasını təmin etmək;

6.5. əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanması, ixtisaslarının artırılması, təcrübə mübadiləsinin aparılması işlərini davam etdirmək;

6.6. işçilər üçün sağlam və təhlükəsiz əmək şəraiti yaratmaq, bu sahədə qabaqcıl təcrübənin yayılması məqsədi ilə sahə idarələri arasında əməyin mühafizəsi, layiqli əmək, sağlam və təhlükəsiz iş şəraitinə həsr olunan Sahə və Baxış müsabiqələrinin keçirilməsini davam etdirmək;

6.7. əməyin mühafizəsi ilə bağlı normativ hüquqi aktların layihələrini hazırlanması və qəbul edilməsində birgə fəaliyyəti davam etdirmək;

6.8. havanın temperaturu 41 dərəcə Selsidən çox olan isti və açıq şəraitli iş yerlərində və ya ilin soyuq vaxtında, temperaturu müsbət 14 dərəcə Selsidən aşağı olan örtülü, lakin isidilməyən binalarda işləyən işçilərə fasilələrin verilməsinə və işin dayandırılmasına nəzarəti gücləndirmək;

6.9. qüvvədə olan qanunvericiliyə müvafiq olaraq zərərli və ağır əmək şəraitində çalışan işçilərə əlavə məzuniyyət, qısaldılmış iş günü, müalicə-profilaktik yeməklər (süd və ona bərabər tutulan digər məhsullar) vermək;

6.10. iş yelərində qadınların iş xüsusiyyətləri nəzərə alınmaqla, müasir tələblərə cavab verə biləcək sanitariya-gigiyena normalarını hazırlamaq;

6.11. əməyin mühafizəsi tədbirlərinə ayrılan vəsaitin təyinatı üzrə xərclənməsinə nəzarəti gücləndirmək;

6.12. iş yerlərində əməyin mühafizəsi qaydalarının tələblərinə uyğun olaraq mikroiqlimi, normal isitməni, təbii və süni işıqlanmanı təmin etmək;

6.13. ekoloji tarazlığı qoruyub saxlamaq məqsədi ilə ətraf aləmə atılan tullantıların həcmini minimuma endirmək;

6.14. istehsalatda baş vermiş bədbəxt hadisə nəticəsində şikəst olmuş, ölümlə nəticələnmiş və ya işçinin səhhətinə vurulmuş zərərin əvəzini nəzərdə tutulmuş yeni qaydalara uyğun miqdarda ödənilməsini təmin etmək;

6.15. uşaq və yeniyetmələrin (15-18 yaşlarda) əməyindən istifadə olunduqda onların həyat və səhhətinə mənfi təsir edən sahələrdə işləmələrinə yol verməmək;

6.16. işəgötürənlər və həmkarlar ittifaqı komitələri işçilərdə zədəsiz və qəzasız işləməyə maddi maraq yaratmaq məqsədi ilə maddi həvəsləndirməyə vəsait ayırmağı, əmək mühafizəsi üzrə əyani vasitələrlə təmin etməyi, təhlükəsizlik qaydalarını pozanları əmək kollektivinin müzakirəsinə çıxarmağı, onları intizam və maddi məsuliyyətə cəlb etməyi öhdələrinə götürürlər.

## 7. Sosial təminatlar və güzəştlər

Sahə işəgötürənlərinə və həmkarlar ittifaqı komitələrinə kollektiv müqavilələrə daxil etmək üçün aşağıdakı öhdəlikləri götürmək tövsiyə olunur:

7.1. əmək kollektivinin qərarı ilə idarənin vəsaiti hesabına müharibə iştirakçılarına, həlak olmuş hərbi qulluqçuların ailələrinə, istehsalatda həlak olmuş işçilərin ailələrinə, əlillərə, pensiyaçılara müxtəlif növ sosial yardımlar göstərmək;

7.2. istənilən səbəbdən istifadə edilməmiş əmək məzuniyyətinə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada və məbləğdə kompensasiya ödəmək;

7.3. işçi əmək pensiyasına çıxdıqda iş stajından asılı olaraq ona birdəfəlik maddi yardım göstərmək;

7.4. müəssisədən hərbi xidmətə çağırılmış və hərbi xidməti qurtardıqdan sonra həmin müəssisəyə qayıtmış işçilərə aylıq əmək haqqı (vəzifə maaşı) miqdarında müavinət vermək;

7.5. müəssisənin vəsaiti hesabına işçiləri istehsalatda bədbəxt hadisələrdən sığorta etmək;

7.6. qanunvericilikdə nəzərdə tutulanlara nisbətən işçilərə əmək və sosial məişət güzəştləri, istehsalatda bədbəxt hadisələrlə əlaqədar əməkçilərə və onların ailə üzvlərinə əlavə ödənişlər vermək;

7.7. işçilərin yaxın qohumu (valideyini, həyat yoldaşı, uşağı və s.) vəfat etdikdə işçiyə əmək haqqı ödənilməklə bir həftə (5 iş günü) işə çıxmamasına icazə vermək;

7.8. ailədə uşağın doğulduğu ilk günlərdə ataya əmək haqqı ödənilməklə bir həftə (5 iş günü) işə çıxmamasına icazə vermək.

## 8. Sosial tərəfdaşlıq və tərəflərin fəaliyyətinin əlaqələndirilməsi

Tərəflər sosial tərəfdaşlıq sahəsində aşağıdakı məsələlərin həllinə köməklik etməyi qəbul edirlər:

8.1. kollektiv müqavilələrin bağlanması üzrə danışıqların aparılmasına işəgötürənlərin daha fəal cəlb olunması;

8.2. Xidmətin tabeliyində olan idarə və təşkilatlarda sosial əmək münasibətlərinin sosial tərəfdaşlıq prinspiləri əsasında tənzimlənməsi;

8.3. kollektiv müqavilələrin bağlanması və onun şərtlərinin yerinə yetirilməsi;

8.4. iqtisadi imkanlar nəzərə alınmaqla, əmək qanunvericiliyinə nisbətən daha geniş əlavə əmək, sosial-iqtisadi, mədəni-məişət və digər münasibətləri əhatə edən kollektiv müqavilələrin bağlanması və həyata keçirilməsi;

8.5. məşğulluq, işə qəbul, əmək haqqı, əməyin mühafizəsi məsələləri ürə kollektiv müqavilənin hazırlanıb bağlanmasına dair lazım olan sənədlərin və məlumatların həmkarlaq ittifaqı komitəsinə vaxtında verilməsi;

8.6. Xidmətin və Federasiyanın təşkil etdiyi tədbirlərdə tərəflərin nümayəndələrinin birgə iştirakının təmin edilməsi;

8.7. danışıqlarda, iclaslarda və yaxud həmkarlar ittifaqı təşkilatlarının tədbirlərində iştirak edən həmkarlar ittifaqı fəallarının həmin günlər üçün orta əmək haqqının (hər bir nəfər üçün ayda 2 gündən çox olmayaraq) saxlanması;

8.8. həmkarlar ittifaqı komitəsinin fəaliyyəti üçün lazım olan avadanlıqların, rabitənin, otaqların əvəzsiz olaraq verilməsi və onların müəssisənin vəsaiti hesabına vaxtaşırı təmirinin aparılması;

8.9. tərəflərin razılığı ilə, idarələrin idarəetmə orqanlarının üzvlərinin üçdə bir hissəsi əmək kollektivi tərəfindən seçilir və seçilmiş nümayəndələr məşvərət səsvermə hüququ ilə idarə heyətinin, direktorlar şurasının iclaslarında iştirakı;

8.10. Tərəflər sosial-iqtisadi və əmək münasibətləri sahəsində yaranan kollektiv əmək mübahisələrinin (münaqişələrin) tənzimlənməsi üçün onlardan asılı olan bütün zəruri tədbirləri həyata keçirilməsi, bu sahədə infrastrukturun təkmilləşdirilməsi və birgə əməkdaşlığın təşkili;

8.11. Xidmətin tabeliyində olan idarə və təşkilatlarda yaradılan həmkarlar ittifaqı təşkilatları aidiyyəti üzrə Sahə həmkarlar ittifaqının xidmətinə daxildir;

8.12. Xidmətin tabeliyində olan idarələrdə həmkarlar ittifaqı təşkilatlarının yaradılması, işçilərin sosial, iqtisadi və əmək münasibətlərinin tənzimlənməsi Xidmətin və aidiyyəti üzrə Sahə həmkarlar ittifaqı Federasiyasının səlahiyyətinə daxildir;

8.13. işəgötürən işçilərin əmək haqlarından həmkarlar ittifaqına üzvlük haqlarının mühasibatlıq vasitəsi ilə tutulmasını təmin edir və 4 iş günü müddətində həmin idarə və təşkilatın həmkarlar ittifaqı təşkilatının xüsusi hesabına köçürülür;

8.14. Tərəflər sahə (tarif), ərazi (rayon) kollektiv sazişlərdə və kollektiv müqavilələrdə müəssisə və təşkilatlarda işləyənlərin müalicə və istirahətlərinin təmin

olunması, onlara maddi yardım göstərilməsi üçün həmkarlar ittifaqına ayırmalar edilməsinin nəzərə alınmasını tövsiyə edirlər;

8.15. Hər bir tərəf qəbul olunmuş öhdəliklərin icrasını təmin edən tədbirləri hazırlayır və həyata keçirir;

8.16. Kollektiv Sazışın icrasına nəzarəti Tərəflərin müvafiq komissiyaları həyata keçirir və nəticələri ilin yekununa görə ümumi iclasda müzakirə edilir;

8.17. Kollektiv Sazişə əlavə və dəyişikliklər Tərəflərin qarşılıqlı razılığı əsasında daxil edilir.

8.18. Bu Sahə (tarif) Kollektiv Sazışı yeni Sazış bağlanılanadək qüvvədədir.

8.19. Tərəflər sosial-iqtisadi və əmək münasibətləri sahəsində yaranan kollektiv əmək mübahisələrinin (münaqişələrin) tənzimlənməsi üçün onlardan asılı olan bütün zəruri tədbirləri həyata keçirirlər;

8.20. Bu Sahə (tarif) Kollektiv Saziş 01 avqust 2024-cü il tarixdən qüvvəyə minir. 01 iyul 2024- cü il tarixdən yaranmış hüquqi münasibətlərə şamil edilir və 2024-2027-ci illər üçün bağlanılır.

| | |
|---|---|
| **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidməti Publik Hüquqi Şəxsin İdarə Heyətinin sədri** | **Azərbaycan Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyasının sədri** |
| **Z.B.Quliyev** | **T.R.Quliyev** |
| **«01» Avqust 2024-cü il** | **«01» Avqust 2024-cü il** |

Federasiyanın sədr müavini

_______________ T.Əliyev

Aparat rəhbəri-Təşkilat və

Təlimat şöbəsinin müdiri

_______________ R.Bürcəliyev

Maliyyə şöbəsinin müdiri

_______________ İ.Ələzov

Baş Hüquq müfəttişi

_______________ N.Yaqublu

Baş Texniki əmək müfəttişi

_______________ A.Ələkbərova

Sanator kurort xidmətinin mütəxəssisi

_______________ L.Əhmədova

Azərbaycan Dövlət Su Ehtiyatları

Agentliyinin tabeliyində Regional

Su Meliorasiya Xidməti Publik Hüquqi

Şəxsin HİK sədri

_______________ E.Tağızadə

Azərbaycan Dövlət Su Ehtiyatları

Agentliyinin tabeliyində Regional

Su Meliorasiya Xidməti Publik Hüquqi

Şəxsin İdarə Heyətinin sədr müavini

_______________ İ.Quliyev

Ümumi şöbənin müdiri

_______________ V.Xudaverdiyev

Planlama və təmir-bərpa işlərinin

Icrasına nəzarət şöbəsinin müdiri

_______________ S.Əlifov

Hüquq və insan resusları şöbəsinin

müdiri

_______________ Z.Cəlilov

Elektro-mexaniki qurğuların istismarı

və nəqliyyat şöbəsinin müdiri

_______________ M.Zakirov

Meliorasiya və suvarma sistemlərinin

istismarı şöbəsinin müdiri

_______________ Q.Kərimov

Su təchizatı,yagış və tullantı su

sistemlərinin istismarı şöbəsinin

müdiri

_______________ E.Rüstəmov